# Kənd Bələdiyyələrinin Milli Assosiasiyası Masallıda toplaşdı

**4 may 2019-cu il tarixdə, Masallı Rayon Mədəniyyət Mərkəzində Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağı keçirilib.**

Yığıncaqda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin məsul əməkdaşları, Milli Məclisin Regional Məsələlər Komitəsinin üzvləri, Ədliyyə Nazirliyinin, Azərbaycan Qəsəbə və Şəhər Bələdiyyələrinin Milli Assosiasiyalarının, Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri, KİV-lərin təmsilçiləri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Toplantıda Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının 2018-ci ildə gördüyü işlər barədə hesabatı, Nəzarət-Təftiş Komissiyasının hesabatı, Milli Asssosiasiyanın 2019-cu il üçün büdcəsi müzakirə edilib. Yığıncaqda Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Əli Mehdiyevin hesabat məruzəsi dinlənilib. Ölkəmizdə uğurla davam etdirilən dövlət siyasəti nəticəsində bələdiyyə orqanlarının ictimai-siyası həyatımıza daha yaxından inteqrasiya olunduğunu vurğulayan Ə.Mehdiyev vətəndaşların yerli özünüidarəetmədə fəallığının artdığını diqqətə çatdırıb.

Qeyd olunub ki, hesabat dövründə Milli Məclisin Regional Məsələlər Komitəsi, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi, həmçinin, QHT-lərlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri davam etdirilib, yerli özünüidarəetmənin qanunvericilik bazası təkmilləşdirilib. Bildirilib ki, Milli Assosiasiyalarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ona hesablanıb ki, bələdiyyələrimiz müasir dövrün çağırışına daha yaxından inteqrasiya olunsun, ərazidə prioritet seçilən sosial məsələlər daha tez həllini tapsın.

Hesabat ilində görülmüş işlərin bir hissəsi yerli özünüidarəetmənin təkmilləşdirilməsi ilə bağlı olub. Milli Assosiasiyaların təşəbbüsü və tövsiyəsi əsasında hər il bələdiyyələrdə keçirilən "Yerli demokratiya həftəsi" çərçivəsində bələdiyyə binalarının qarşısında, əhalinin sıx toplaşdığı yerlərdə müxtəlif çağırış şüarların asılması, sosial şəbəkələr və xəbər prtallarında əvvəlcədən yerləşdirilən elanlar həftə tədbirlərinin kütəviliyini xeyli artırıb. Diqqətə çatdırılıb ki, bələdiyyələrin iqtisadi potensialının artırılması sahəsində fəaliyyətin əlaqələndirilməsi, İKT üzərindən "Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi " üzrə fəaliyyətin üzrə tədiyyəçilərin oçutunun qurlması davam etdilib, vergi və ödənişlərin toplanmasında müsbət dinamika yaranıb. Bu səbəbdən ötən il ölkəmizin kənd bələdiyyələrinin gəlirləri artıb, sosial sifarişli layihələrin icrası sürətlənib.



Hesabat dövründə Milli Assosiasiyaların "Bir bələdiyyəazı bir layihə" layihəsi çərçivəsində kənd bələdiyyələri tərəfindən 20 istiqamətdə 3157 layihə üzrə 4,8 milyon manatlıq layihələr icra olunub. Bu il isə 3500 layihənin icrası nəzərdə tutulub. 2018-ci ilin yekunlarına əsasən kənd bələdiyyələri üzrə yerli büdcə gəlirləri 13,6 milyon manat olub. Milli Assosiasiya yerli özünüidarəetmə məsələləri ilə bağlı Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi, beynəlxalq qurumlar və QHT-lər, xarici ölkələrin bələdiyyələri və assosiasiyaları ilə əməkdaşlıq əlaqələrini davam etdirib. Sonra Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının Nəzarət-Təftiş Komissiyasının hesabatı dinlənilib. Müzakirələrdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov, Milli Məclisin deputatları Tahir Rzayev, Kamran Bayramov və Cavid Osmanov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov, Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qınbərova, kənd bələdiyyələrinin sədrləri çıxış ediblər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov çıxışında hesabat dövründə kənd bələdiyyələrinin gördüyü işlərdən, dövlətin bələdiyyələrə qayğısından danışaraq yerli özünüidarəetmə orqanların fəaliyyətində olan nöqsanlar və onların aradan qaldırılması ilə bağlı tövsiyələrini bildirib.

Kənd bələdiyyələrinin gəlirlərinin ötən illə müqayisədə azaldığını, tədiyyəçilərin düzgün oçuta alınmamasının vergilərin və ödənişlərin yığımına təsir etdiyini vurğulayan Prezident Administrasiyasının rəsmisi bələdiyyə üzvlərinin hər zaman seçicilərinin yanında olmasının, onların problemləri ilə yaxından maraqlanmasının vacibliyini diqqətə çatdırıb. Toplantıda, həmçinin Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyanın 2019-cu il üçün büdcə layihəsi barədə Milli Assosiasiyanın icraçı katibi Vüsal Pşayevin məlumatı dinlənilib.

**Ümumi yığıncaqda müzakirə edilən məsələlərlə bağlı müvafiq qərar qəbul edilib.**

**Əlihüseyn Şükürov.**
**Masallıda çıxan həftəlik "Yeni həyat" qəzetinin Baş redaktoru**

Ədalət.-2019.-9 may.-S..6.